# “Doğma Vətənlə sıx əlaqələrimiz var”



***“Bu gün Azərbaycanda uğurlu gənclər siyasəti həyata keçirilir. Xüsusilə gənclərin təlim-tərbiyəsi, təhsili və sosial problemləri dövlətimizin diqqət mərkəzindədir. Biz, azərbaycanlı gənclər xarici ölkələrdə təhsil alıb müxtəlif ölkələrdə çalışsaq da qəlbimiz həmişə Azərbaycanın yanındadır. Onun sevinci sevincimiz, kədəri kədərimizdir”. Bu sözləri ABŞ-ın Nyu-York şəhərində “Starta” şirkətində erkən mərhələ üzrə investisiya analitiki işləyən Qüdrət Quliyev deyir.***

Qüdrət bizimlə söhbətində əvvəlcə özü haqqında danışdı. Bildirdi ki, valideynlərim Moskvada yaşadıqlarından orada doğulmuşam. Orta məktəbi isə Bakıda bitirmişəm. Sonra isə “City University of London”da beynəlxalq siyasi iqtisadiyyat üzrə bakalavr pilləsini bitirmişəm.

Londonda təhsil aldığım müddətdə Azərbaycanla bağlı tədbirlərdə fəal iştirak etmişəm. Əcnəbi tələbələri mədəniyyətimiz və adət-ənənələrimizlə tanış etmək üçün universitetdə Azərbaycan günü də təşkil etmişdik. Məzun olduqdan sonra Bakıya qayıtdım və Maliyyə Nazirliyində işə başladım. Bir il orada işlədikdən sonra işimi dəyişdim və “EY” konsaltinq firmasında çalışdım. Bir müddət sonra maliyyə üzrə magistr təhsili almağa qərar verdim. Ona görə də Nyu-Yorkdakı Fordham Universitetində maliyyə ixtisası üzrə magistr təhsili aldım.

Eyni zamanda, ABŞ-da fəaliyyət göstərən Azərbaycan diasporunun işində fəal iştirak edirəm. “Accelarator” proqramımız üçün startapları qiymətləndirir və təhlil edirəm. Əlavə olaraq, əgər startapa yatırım ediriksə, o zaman investisiya memorandumu hazırlayıram ki, investorlarımız startaplarla tanış olsunlar. Bundan əlavə, müxtəlif ölkələrdə bizimlə co-investisiya etmək istəyən investor şəbəkəmizi genişləndirmək üzərində işləyirəm.

İndi mən Bakıdayam. Şəhərimizin bugünkü gözəlliyi məni valeh edib. Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı həqiqətən cənnət-məkana çevirmişdir. Burada gənclərin yaşaması və işləməsi üçün hər cür şərait yaradılıb.

Cənab Prezident gənclər və idman naziri Fərid Qayıbovu videofamatda qəbul edərkən Azərbaycan gəncləri haqqında maraqlı fikirlər bildirdi. Dedi ki, gənclərimiz ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Həm məktəblərdə, həm ailələrdə ənənəvi dəyərlər bizim əsas sütunumuzdur. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirlərdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır.

Ölkəmizdə gənclərə qayğı, doğrudan da, böyükdür. Hiss olunur ki, Azərbaycanda yüksək vətənpərvər ruhlu gənclər yetişib. Bunu İkinci Qarabağ müharibəsində qəhrəman gənclərimizin şücaəti bir daha göstərdi. Biz Azərbaycandan uzaqlarda yaşasaq da, bu müharibənin hər anını diqqətlə izləmişik. Ali Baş Komandanımızın şücaəti, böyük sərkərdəlik istedadı, ordumuzun qələbəsi ilə fəxr etmişik.

Bir məqamı da diqqətə çatdırmaq istərdim. Cənab Prezident həmin qəbuldakı çıxışında bildirdi ki, indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni, gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır.

Biz xaricdə yaşayan gənclər belə hallarla qarşılaşırıq. Lakin azərbaycanlı gənclər heç vaxt təxribatlara uymaz, onlar vətəncanlı, öz doğma yurdlarına bağlı gənclərdir.

Biz xaricdə yaşayan gənclər Prezident İlham Əliyevin siyasətini dəstəkləyirik, Azərbaycanımızın müstəqilliyi və suvrenliyi yolunda dövlətimizin başçısına böyük uğurlar arzulayırıq.

***Hazırladı:***
***Mehdi MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2021.- 16 sentyabr.- S.3.